## *METODİKA: FƏNLƏRİN TƏDRİSİ*

UOT 373.3/.5

***Xanım Hüseyn qızı Qədimova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universitetinin müəllimi*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNTERAKTİV MÜHAZİRƏ METODLARI MÜƏLLİM-TƏLƏBƏ ƏKS-ƏLAQƏSİNİN YARADILMASI VASİTƏSİ KİMİ

***Ханум Гусейн гызы Гадимова***
*доктор философии по педагогике,*
*преподаватель Бакинского Государственного Университета*

# ИНТЕРАКТИВНЫЕ МЕТОДЫ ЛЕКЦИЙ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ КАК СРЕДСТВО СОЗДАНИЯ ОБРАТНОЙ СВЯЗИ МЕЖДУ ПРЕПОДАВАТЕЛЯМИ И СТУДЕНТАМИ

***Khanim Huseyn Gadimova***
*doctor of philosophy in pedagogy*
*lecturer at Baku State University*

# INTERACTIVE LECTURE METHODS IN HIGHER EDUCATION INSTITUTIONS AS A MEANS OF CREATING FEEDBACK BETWEEN TEACHERS AND STUDENTS

**Xülasə.** Məqalədə ali təhsil müəssisələrində şəxsiyyətyönlü təlim prosesinin metodikası araşdırılır, ənənəvi və interaktiv mühazirənin müqayisəsi verilir. İnteraktiv mühazirələrin müxtəlif üsulları, alqoritmləri və praktik nəticələri qeyd olunur. Coğrafiya fənninə aid bir neçə interaktiv dərs nümunəsi təqdim olunmuşdur.
**Açar sözlər:** Fəal təlim, interaktiv mühazirə, əks-əlaqə, poliloq, müzakirə,şəxsiyyətyönümlü

**Резюме.** В статье рассматривается методология личностно-ориентированного процесса обучения в высших учебных заведениях, дано сравнение традиционных и интерактивных лекций. Отмечены различные методы, алгоритмы и практические результаты интерактивных лекций.
***Ключевые слова:*** *активное обучение, интерактивная лекция, обратная связь, полилог, дискуссия, личностно-ориентированный*

**Summary.** The article examines the methodologi of the perconality-oriented learning process in higher education institutions,acomparison of traditional and interactive lectures is given.

Different methods,algorithms and practical results of. interactive lectures are noted.
***Key words.*** *Active learning, interactive lecture, feedback, polylogue, discussion*

Ali təhsil müəssisələri üçün xarakterik olan mühazirə metodu tədrisin didaktik mərhələsinin əsas pedaqoji texnologiyasıdır.

Mühazirə ərəb mənşəli söz olub hər hansı mövzunun auditoriya qarşısında şifahi şərhi deməkdir. Müəyyən dövrlərdə ənənəvi, monoloji mühazirə, xüsusən də natiqlik və peşə bacarıqları yüksək olan, xarakterik xüsusiyyətləri ilə fərqlənən bir çox pedaqoqların müraciət etdiyi metod olmuşdur.

Mühazirə təlim metodu bu gün də əksər ali məktəblərdə ən çox tətbiq olunan ənənəvi strategiya olaraq qalmaqdadır. Müşahidələr göstərir ki, mühazirə təlim metodu şəxsiyyətyönümlü təhsilin prinsiplərinin tələblərinə cavab vermir. Mühazirəçinin uzun müddətli monoloqu dinləyicilərin passivliyinə səbəb olur. Tələbələr

yalnız materialı dinləyir, qeydlər aparır və eşitdiklərini yadda saxlamağa çalışırlar. Ənənəvi mühazirə müəllimin auditoriya ilə əks-əlaqə yaratmasına və interaktivliyin olmasına imkan yaratmır.

Bununla əlaqədar olaraq pedaqoji mətbuatda mühazirənin digər təlim metodları ilə əvəz olunması barədə fikirlər söylənilir. Bizə elə gəlir ki, tamamilə mühazirə metodundan imtina etmək tələbələr üçün müəyyən çətinliklər yarada bilər. Müstəqil şəkildə bir çox faktları tapmaq, ziddiyyətli anlayışları müqayisə etmək və materialı sistemləşdirmək əlavə vaxt itkisinə səbəb olar.

Müəllim və tələbə arasında vaxtında konstruktiv və obyektiv əks-əlaqə yaranarsa, təlimdə yüksək nəticələr əldə etmək olar. Şəxsiyyətyönlü təhsil sistemində tələbə motivasiyasının yüksək səviyyədə olması vacibdir. Müəllimin özünün rəhbərlik və fasilitatorluğunu saxlamaqla tələbələrlə səmimi, yaradıcı dialoq qurması, qarşılıqlı fikir mübadiləsində olması gələcək mütəxəssislərin təhsil və tərbiyəsində mühüm rol oynayır. Bu baxımdan dialoji təlimə keçid daha əlverişlidir. Dialoji təlim "müəllim-tələbə-qrup" münasibətlərinə keçilməsini nəzərdə tutur. Dialoji təlim zamanı tələbələrin fəaliyyətləri problemlərin birgə həllinə yönəldilir. Bu isə tədris prosesində bütün iştirakçılara öz qabiliyyətlərini gerçəkləşdirmək, özlərinə inam yaratmaq, dəyərli şəxsiyyət olduqlarını dərk etmək imkanını verir.

Təlim metodları üç qrupa bölünür: ənənəvi, fəal və interaktiv. Fəal və interaktiv metodlar yeni nəsil tələbələrini daha çox cəlb edir. Fəal təlim metodlarından istifadə zamanı öyrənmə prosesi müəllim və tələbənin qarşılıqlı əlaqəsi, əməkdaşlığı üzərində qurulur. İnteraktiv təlim metodlarının tətbiqi zamanı tələbələr daha çox bir-biri ilə qrupda əməkdaşlıq edərək, poliloqda iştirak edirlər. Poliloq zamanı şifahi informasiya mübadiləsi baş verir. Fəal və interaktiv təlim metodları daha çox şəxsiyyətyönlü və kompetentliyə əsaslanan yanaşmaların prinsiplərinə cavab verir. Bu zaman həm müəllim, həm də şagird təlim prosesinin subyektləridir. Qədim Çin hikmətində deyilir: "Mənə de-mən yaddan çıxarım. Mənə göstər-mən yadda saxlayım. Məni cəlb et-mən öyrənim". ABŞ-ın Men ştatının Betel şəhərinin Milli tədris laboratoriyalarında işlənib hazırlanmış "Dərketmə piramidası"na əsaslanaraq demək olar ki, tələbələr tərəfindən materialın orta mənimsəmə göstəricisi dinləmə zamanı – 5%,müzakirə zamanı – 50%, praktik iş zamanı – 75% -dir.

Ənənəvi mühazirədəki informasiya bolluğu ilə interaktiv strategiyaların birləşməsi mühazirə dərslərinin səmərəliliyinə səbəb olur. İnteraktiv mühazirə metodunun bir çox üsulları məlumdur. Bunlardan aşağıdakıları göstərmək olar:

– mühazirə-annotasiya
– tapşırıqlı mühazirə
– problemli mühazirə
– vizuallaşdırılmış mühazirə
– ikilikdə aparılan mühazirə
– "mətbuat konfransı"
– mühazirə-müşavirə
– mühazirə -oyun
– mühazirə-dialoq və s.

Təcrübə göstərir ki, tələbələrin idraki fəaliyyətini gücləndirmək üçün təlim zamanı interaktiv təlim metodları və elektron tədris vasitələrindən istifadə etməklə uğurlu nəticə almaq olur. Dərslərimdə tətbiq etdiyim interaktiv mühazirələrin bir neçə üsulu və onun aparılması alqoritmi ilə bağlı fikirlərimi həmkarlarımla bölüşmək istəyirəm .

Mühazirə zamanı əks-əlaqənin yaranması və tələbələrin fəallaşması **mühazirə-dialoq** üsulunda əhəmiyyətli dərəcədə nəzərə çarpır. Bu üsulun alqoritminə əsasən tələbələrə əvvəlcədən mühazirə mətni verilir və onu evdə diqqətlə oxumaq tapşırılır. Müəllim mətni bir neçə hissəyə ayırır və mühazirəni həmin hissələrə uyğun təşkil edir. Hər hissəyə 10-15 dəqiqə vaxt ayırır. Hər hissənin sonunda suallar verir, tələbələr sualları cavablandırır. Cavablarda qeyri dəqiqlik və ya uyğunsuzluq olduqda müəllim özü suallara ətraflı cavab verir. Bu alqoritm mətn bitənə qədər davam edir. Mühazirənin sonunda tələbələr suallara cavab verdikdən sonra bir çox interaktiv dərslərdə olduğu kimi refleksiya aparılır. Refleksiya əldə edilən biliklərin şüurlu olaraq dərk edilməsini və öyrənməyi öyrədir. Ev tapşırığı olaraq tələbələrə materialın hər hissəsinə aid testlərin hazırlanması tapşırılır. Bu, materialın daha yaxşı mənimsənilməsinə kömək edir.

*Nümunə:*

Azərbaycanın fiziki coğrafiyası fənninə aid bir çox mövzuların tədrisində bu metodu

tətbiq etmək olar. Məsələn, ”Azərbaycan ərazisinin orfoqrafik xüsusiyyətləri” mövzusunu (mövzunun birinci hissəsi) tədris edərkən mətni dörd hissəyə ayırıram:

– Başsuayrıcı silsilə
– Yan silsilə
– Kiçik Qafqaz dağları
– Talış dağları

10 dəqiqə ərzində” Başsuayrıcı silsilə” orfoqrafik elementi haqqında məlumat verdikdən sonra mühazirəni dayandırıb, tələbələrə Başsuayrıcı silsilə, onun yerləşdiyi ərazi, cənuba doğru uzanan qısa silsilələr, yaylalar, alçaq tirələr, uca zirvələr və s. relyef formaları haqqında suallar verirəm. Qabaqlayıcı tapşırığa əsasən tələbələr bu sualları cavablandırırlar. Bu zaman əks-əlaqə yaranır və hansı tələbənin tapşırığı necə yerinə yetirməsi, diqqətliliyi məlum olur. Bu ardıcıllıq digər üç hissəyə də aid edilir.

Bu mövzuda oroqrafik elementlərin, nomenklaturanın çoxluğu mənimsəmədə çətinlik yaradır. Tələbələrin toponim və oronimlərin yerlərini dəqiq bilmələri, qarışdırmamaları üçün bu metodun tətbiqi əlverişlidir. Metodun alqoritmindən irəli gələrək, toponimlər, oronimlər mühazirə müddətində bir neçə dəfə təkrarlanır və xəritədə göstərilir.

**Mühazirə-müşavirə** üsulu interaktiv olaraq, effektli və dinamik bir metoddur. Tələbələrə əvvəlcədən mühazirənin mətni elektron formada göndərilir və mübahisəli, müzakirə oluna biləcək sualların siyahısı verilir, araşdırma üçün mənbələr də təklif olunur. Tələbələr materialları öyrənməli, mövzuya münasibət bildirməlidirlər. Mühazirə zamanı onlar müzakirə olunan məsələlərlə əlaqədar öz fikirlərini söyləyir, onları təsdiq etməyə çalışır, faktları təhlil edir, problemin həlli yollarını təklif edirlər. Bu metod aşağıdakı məqsədlərə nail olmaq üçün tətbiq edilir:

– anlayış və ideyaların yoxlanılması və aydınlaşdırılması;
– analoqların, oxşarlıqların, fərqlərin tədqiq olunması.

Mühazirə-müşavirə metodunun üstün cəhətləri:

– müxtəlif nöqteyi-nəzərlərin söylənilməsinə imkan verir;
– qarşılıqlı ünsiyyətə şərait yaradır;
– auditoriyada demokratik mühit yaradır;
– dialoq aparmaq bacarığını formalaşdırır.

**Mühazirə-mətbuat konfransı** metodunun tətbiqində tələbələrə qabaqlayıcı tapşırıqlar verilir. Mövzu əvvəlcədən tələbələrə elan edilir. Evdə mövzu üzərində müstəqil işləmək üçün mənbə və materialları müəllim tövsiyə edir. Tələbələrə materialı araşdırmaqla yanaşı, həm də 2 sual hazırlamaq tapşırılır. Suallar müəllimə ünvanlanır və müəllim tərəfindən cavablandırılır. Tələbələr bu sualları elektron şəkildə əvvəlcədən göndərə və ya mühazirəyə gətirə bilərlər. Dərsdən əvvəl müəllim tələbələrin suallarını sistemləşdirir. Mühazirə suallar əsasında keçirilir və tələbələr öz suallarına cavab tapırlar. Bu metod xarici metodik ədəbiyyatda bəzən **mühazirə-brifinq** də adlandırılır. Mühazirəçi yalnız materialı mükəmməl bilməklə kifayətlənməməli, həm də auditoriya ilə əks-əlaqə qurmalı, tez reaksiya verməli və yumor hissinə malik olmalıdır. Uğurlu sualların müəllifləri müəllim tərəfindən mükafatlandırıla bilər.

**Tapşırıqlı mühazirə** metodu tələbələrin idraki fəaliyyətini aktivləşdirməyə imkan verir. Bundan başqa tələbələrlə əks-əlaqə yaranır, mövzunun çətinlik törədən məqamları müəyyənləşdirilir və həmin məqamlara bir daha aydınlıq gətirilir. Bəzən mövzudan asılı olaraq tələbələrə bir deyil, bir neçə tapşırıq vermək olar. Bu metodun alqoritminin davamı olaraq mühazirəyə başlayarkən auditoriya bir neçə qrupa bölünür. Mühazirə zamanı müəllim müəyyən vacib məsələlərə toxunduqdan sonra çıxışını dayandırır. Qruplar onlarda olan mühazirə materialına istinadən dinlədikləri hissəyə aid üç sual hazırlayır. Müəyyən vaxtdan sonra qruplar növbə ilə suallarını verir və digər qruplar bu sualları cavablandırır. Beləliklə, bu alqoritm mühazirə mətni bitənə qədər davam edir.

Digər interaktiv metod **mühazirə-annotasiya** adlanır. Müəllim mühazirəyə başlamamışdan öncə tələbələr qruplara bölünür və onlara bildirilir ki, mühazirə dinlənildikdən sonra annotasiya yazmalıdırlar. Yazılan annotasiyalar qrup daxilində oxunduqdan sonra ən yaxşısı seçilir. Hər qrup öz fərqləndirdiyi annotasiyasını bütün auditoriyaya oxuyur. Dinlənilən annotasiyalar müzakirə olunur, yaxşıların ən yaxşısı seçilərək elan olunur

*Nümunə:.*

“Azərbaycanın landşaft tipləri” və “Azərbaycanın fiziki-coğrafi rayonlaşdırılması” möv-

zularının tədrisi zamanı mühazirə-annotasiya metodundan istifadə edirəm. Bu mövzuların məzmununu təşkil edən komponentlər ayrılıqda əvvəlki dərslərdə tədris olunub. Məsələn, artıq tələbələr Azərbaycanın relyefi, geoloji quruluşu, faydalı qazıntıları, iqlimi, daxili suları, torpaqları, bitki və heyvanat aləmi, landşaftları və s. haqqında məlumatlıdırlar. Konkret olaraq "Kiçik Qafqaz vilayəti" mövzusunu keçərkən vilayətin yuxarıda sadaladığım komponentləri haqqında məlumat verirəm. Bu zaman tələbələrin əvvəlki bilikləri təzələnir, yada düşür və annotasiyanı yazarkən həmin biliklərdən istifadə edə bilirlər.

Yuxarıda göstərilən metodlar alqoritmlərinə görə bir-birindən fərqlənirlər. Lakin bütün interaktiv mühazirələrə aid olan ümumi tələblər var. Onlardan aşağıdakıları göstərə bilərik:

- -Mühazirədə interaktivlik yaradan daimi əks-əlaqə ilə tələbələrin mühazirəyə hazırlığını yoxlamaq;
- -mühazirə zamanı tələbələri suallar verməyə həvəsləndirmək;
- -assosiasiya yaratmaq üçün tələbələri cəlb etmək;
- -nəzəriyyəni praktika ilə əlaqələndirmək;
- -mühazirənin sonunda nəticə çıxarmaq;
- -auditoriyanın reaksiyasını müşahidə etmək;
- -refleksiya aparmaq.

İnteraktiv mühazirələr tələbələrin diqqətinin, məntiqi və tənqidi təfəkkürünün inkişafı baxımından çox əhəmiyyətlidir.

**Problemin aktuallığı.** .Dialoji və poliloq təlim zamanı tələbələrin fəaliyyətləri ənənəvi mühazirələrdən fərqli olaraq, problemlərin birgə həllinə yönəldilir.

**Problemin elmi yeniliyi.** Ali təhsil müəssisələrində müəllim və tələbə arasında vaxtında konstruktiv və obyektiv əks-əlaqənin yaranması, poliloqun təşkili təlimdə yüksək nəticələr əldə etmək üçün vasitədir.

**Problemin praktik əhəmiyyəti**. Tələbələrin idraki fəaliyyətini gücləndirmək üçün təlim zamanı interaktiv təlim metodları və elektron tədris vasitələrindən istifadə etməklə uğurlu nəticə alınır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası // Kurikulum, 2013, № 4
2. Садеков Р.Р. Левченко В.В. Недостатки лекции как части семинарской формы обучения в современных ВУЗ-ах // Дискуссия, 2013, № 9
3. Остапенко И.А. Кроливецкая И.Е. Недостатки лекционной формы обучения и пути их преодоления // научный-методический электронный журнал «Концепт» 2016, Т. 23
4. Давиденко Е.С. Активизация лекционной формы обучения в ВУЗ-е // Современные проблемы науки и образования, 2019, № 5


**E-mail:** khanimqadimova@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **A. Əliyeva**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**

**Redaksiyaya daxil olub:** 15.03.2021